

# Rafiq YUSİFOĞLU-75

Hörmətli Rafiq müəllim!

Sizi - həyatını ədəbiyyatın yaranmasına, tədqiqinə, təbliğinə həsr edən tanınmış şair və ədəbiyyatşünas alimi 75 illik yubileyiniz münasibətilə təbrik edirik. Siz 1970-ci ildə ADPU-nun filologiya fakültəsini bitirərək Sumqayıt şəhərində müəllim kimi əmək fəaliyyətinə başlamısınız. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil alaraq, 1984-cü ildə "Azərbaycan sovet poemasının inkişaf problemləri (1956-1965)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, filologiya elmləri namizədi alimlik dərəcəsi almısınız. Gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı, 1985-ci ildə Moskvada Ali Komsomol Məktəbinin bir aylıq jurnalistika kursunun müdavimi olmusunuz. 1985-ci ildə "Göyərçin" jurnalının redaksiyasına şöbə müdiri vəzifəsinə təyin olunmusunuz. "Göyərçin" jurnalının redaksiyasında məsul katib, Azərbaycan Dövlət Televiziyasının Xəbərlər Baş redaksiyasında "Elm, Mədəniyyət, İncəsənət" şöbəsinin müdiri vəzifəsində işləmiş, 1997-ci ilin may ayından "Göyərçin" jurnalının baş redaktoru təyin edilmisiniz və hazırda həmin vəzifədə səmərəli fəaliyyətinizi davam etdirirsiniz. Bir naşir kimi uğurlarınız çox böyükdür. Elə buna görə də 2005-ci ildə Azərbaycan mətbuatının inkişafındakı xidmətlərinizə görə Sizə Əməkdar mədəniyyət işçisi fəxri adı verilmişdir.

2006-cı ildə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmisiniz. 2011-ci ildə professor elmi adı almısınız. Uzun illər ədəbi-elmi yaradıcılıqla bərabər, səmərəli elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, həm Sumqayıt Dövlət Universitetində, həm də Azərbaycan Dövlət Pedaqoji Universitetində professor kimi çalışmısınız. Elmi-pedaqoji kadrların hazırlanmasında da əməyiniz böyükdür. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda, AMEA Folklor İnstitutunda Dissertasiya şuralarının üzvü kimi uzun illər fəaliyyət göstərmisiniz və bu proses indi də davam etməkdədir. Elmi-pedaqoji kadrların hazırlanmasında xidmətləriniz böyükdür. Sizin rəhbərliyiniz altında bir neçə filoloq fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Siz həm elmi rəhbər, həm də rəsmi opponent kimi çox böyük işlər görmüsünüz, iyirmidən çox elmlər doktorluğu, yüzə yaxın fəlsəfə doktorluğu dissertasiyasının rəsmi opponenti olmağınız bu sahədə səmərəli fəaliyyətinizin göstəricisidir. Adınızın "ADPU-nun 100 məşhur məzunu" kitabına daxil edilməsi, yubiley medalı ilə təltif olunmağınız Sizə olan hörmətin göstəricisidir.

Siz çoxşaxəli yaradıcılığa malik qələm sahiblərindənsiniz. İndiyədək monoqrafiya və dərslikləriniz də daxil olmaqla, 100-dən çox kitabınız çap olunmuşdur. Hər biri 512 səhifədən ibarət olan 20 cildlik seçilmiş əsərlərinizin 19 cildinin nəşri həm öz yaradıcılıq bioqrafiyanızda, həm də ədəbiyyat tariximizdə əhəmiyyətli bir hadisədir. "Qızıl kəlmə", "Qızıl qələm", "İlin ən yaxşı kitabı", "Vətən", "Araz" və sair ədəbi və media mükafatlarının laureatısınız.

Müasir poeziyamızın, xüsusən, uşaq ədəbiyyatının inkişafında Sizin xüsusi xidmətləriniz vardır. Nüfuzlu müsabiqələrdə uşaqlar üçün yazılan əsərlərinizin həmişə birincilik qazanması təsadüfi deyildir. Orta məktəb dərsliklərinə daxil edilən əsərlərinizin biblioqrafik göstəricisi dörd yüzə yaxındır. Yeri gəlmişkən, onu da xatırladaq ki, F.Köçərli adına Respublika Uşaq kitabxanası Sizin 520 səhifəlik "Biblioqrafiya" kitabınızı hazırlayıb nəşr etmişdir. Kitaba AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Ön söz yazmışdır.

Sizin sözlərinizə Siyavuş Kəriminin bəstələdiyi "Ulu Öndər" mahnısı əsasında eyniadlı film çəkilmiş, dövlət səviyyəsində təqdimatı olmuşdur. Sözlərinizə xeyli mahnılar bəstələnmiş, əsərlərinizin motivləri əsasında "Qəm karvanı", "Bütün Azərbaycan əsgər olmalı" və s. kimi televiziya tamaşaları çəkilmişdir. Dünya ədəbiyyatının bir neçə görkəmli nümayəndəsinin əsərlərini dilimizə ustalıqla tərcümə etmisiniz. Öz şeirləriniz də ingilis, alman, rus, özbək, qazax, ukrayın, belarus və sair dillərə tərcümə edilmişdir..

"Yurdum-yuvam", "Ətirli düymələr", "Ocaq yeri", "Aylı cığır", "Qəm karvanı", "Həsrət köçü", "Sladkiy dojd", "Rain, flowers and I", "Böyük arzuya gedən yol", "Təzə sevdalara doğru", "Çiçək yağışı", "Söz çəməni", "Ayrılığın qəm hasarı", "Günlərimiz, aylarımız", "Zamanın qatarı", "Həsrət sazağı", "Daha uşaq deyiləm", "Yollar", "Sevdalı sabahlar", "Ana dilim", "Eşqin qarlı yollarında", "Dəniz, sən və mən", "Quşlar dünyası", "Könül səltənəti", "Qızılı məktublar", "Arzular kəhkəşanı", "Sabahın sorağında", "Bulud fayton", "Üçüncü qərinə", "Nağıl qapısı", "Ömür ağacımdan düşən yarpaqlar", "Yaddaş kitabı", "Sevdalı ömür yaşadım", "Zəfər dastanı" adlı şeir, "Bahar qatarı", "Dəniz səviyyəsi", "Elm və Helm", "Tapmacalar ölkəsi", "Bitdilicə", "Xiffət" (roman) adlı nəsr, "Xatirə kəcavəsi", "Bir sevdalı ürəyim var", "Tanrının ömür payı", "Ulu yurd yerlərimiz", "Qoruq və yasaqlıqlarımız", "Taleyimdən keçən yollar" adlı publisistika kitablarının, bir çox elmi monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin müəllifisiniz.

Hörmətli Rafiq müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**